Kredo

Axundov adına Milli

BARİZ İNSANIN TARİX İNSANIN ƏQLİ VƏ İNAM UĞRUNDA

Müstəqil ictimai-siyasi, publisistik qəzet | №11 (530) 14 mart 2009-cu il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır

M.F.Axundov milli ədəbi tənqidin banisi kimi

M.F.Axundov milli dramaturgiyanın və realist nəsrin əsasını qoymuşdur. Azərbaycan ədəbi-mədəni fikir tarixində o, həm də professional ədəbi tənqidin banisi kimi yer tutur.

M.F.Axundovun ədəbi, tənqidi və estetik görüşləri Azərbaycan ədəbiyyatşünaslığının diqqət mərkəzində olan problemlərdən biri olmuşdur. M.Rəfili, M.C.Cəfərov, F.Qasımzadə, K.Talıbzadə, Y.Qarayev, M.Məmmədov, X. Məmmədov və b. ədəbiyyatşünas alimlərin, həmçinin estetika məsələləri ilə məşğul olan tədqiqatçıların əsərlərində böyük mütəfəkkirin yaradıcı fəaliyyətinin bu sahəsi sistemli araşdırma obyekti olmuşdur. Professor M.Məmmədov yazırdı ki, "bu sahədə ilk uğurlu addım görkəmli ədəbiyyatşünas, Azərbaycan ədəbiyyatının mötəbər araşdırıcılarından olan Məmməd Cəfər tərəfindən atılmışdır. Onun 1910-cu ildə nəşr etdirdiyi "M.F.Axundovun ədəbi-tənqidi görüşləri" adlı əsəri ədəbiyyatşünaslığımızda diqqətəlayiq bir hadisə idi. M.Cəfər yazıçının ədəbi-estetik görüşlərini şərh edərkən təkcə onun mətbu məqalələri ilə kifayətlənməmiş, M.F.Axundovun o zaman hələ əlyazması şəklində olan ədəbi-tənqidi məqalələrini, həmçinin müasirlərinə ünvanlanmış ayrı-ayrı məktublarında əksini tapan ədəbi-tənqidi fikir və mülahizələrini də tədqiqata cəlb etmiş, bütün bu materiallar əsasında milli ədəbi tənqidimizin banisi M.F.Axundovun nəzəri-estetik görüşlərinin dolğun şərhinə müvəffəq olmuşdur." (Məmmədov M. Azərbaycan ədəbi tənqidi. Müntəxəbat. Bakı, "Tural- Ə" NPM, 2002, s.11-12).

XIX əsr ədəbiyyatı üzrə nüfuzlu mütəxəssis kimi tanınan F.Qasımzadə də "M.F.Axundovun həyat və yaradıcılığı" (1962) monoqrafiyasında və "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" dərsliyində böyük sənətkarın "ədəbi, tənqidi və estetik görüşləri"ni xüsusi bölmədə şərh etmişdir.

M.F.Axundovun ədəbi-nəzəri görüşlərinin tədqiqi sahəsindəki yeni mərhələ, heç şübhəsiz ki, akademik K.Talıbzadənin tədqiqatları ilə başlanır. Hər şeydən əvvəl ona görə ki, K.Talıbzadə M.F.Axundovun ədəbi-tənqidi və estetik görüşlərini yalnız sənətkarın yaradıcılıq yolunun bir sahəsi kimi yox, Azərbaycan ədəbi tənqidinin tarixi bir mərhələsi kimi araşdırır, bu tarixdə M.F.Axundovun yerini müəyyənləşdirməyə çalışır. Digər tərəfdən K.Talıbzadənin tədqiqatlarında "...M.F.Axundov və maarifçi estetik fikir problemi ilk dəfə iri planda, nəzəri-elmi şəkildə qaldırılır" (Qarayev.Y Tənqidimizin tarixi (Ön söz). Talıbzadə K. A. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı. "Maarif", 1984, s. 4).

K.Talıbzadə M.F.Axundovun ədəbi-tənqidi görüşlərini öyrənmək üçün M.C.Cəfərov və F.Qasımzadənin elmi tədqiqat obyektinə çevirdikləri mənbə və materialların əhatə dairəsini xeyli genişləndirmiş, sənətkarın ədəbi-nəzəri, tənqidi və estetik görüşlərini onun dünyagörüşü, ədəbi yaradıcılıq metodu ilə sıx əlaqədə araşdırmış, sənət konsepsiyasının nəzəri əsaslarını müəyyənləşdirməyə çalışmışdır. M.F.Axundovun ədəbi-nəzəri və tənqidi görüşlərini "maarifçi-realist tənqid konsepsiyası" kimi ümumiləşdirən K.Talıbzadə onun sənət mövqeyinə və fikirlərinə də bu konsepsiya işığında qiymət vermiş və izah etmişdir: "Ədibin estetik irsinin tədqiqi təsdiq edir ki, bədii yaradıcılığında olduğu kimi, o, sənətə baxışında da maarifçi-realist olmuşdur, həmin metodun ayrı-ayrı prinsiplərini vahid bir konsepsiya əsasında şərh etmişdir. O, bir mütəfəkkir kimi tənqidi realizmin əsas ideya bazası - inqilabi-demokratik fikirlər söyləmək səviyyəsinə yüksələ bilmişsə, sənətə baxışında, xüsusən realizm nəzəriyyəsində əsasən maarifçi-realizm mövqeyində dayanmış, bu məsələlərin həllində ardıcıllıq göstərmişdir" (Talıbzadə K.A. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı. "Maarif", 1984, s.60).

Məlumdur ki, ədəbi, tənqidi və estetik görüşlər geniş anlayışdır. Ədəbiyyat tarixində yer tutan hər bir sənətkarın yaradıcılığına bu baxımdan yanaşmaq və tədqiqat obyektinə çevirmək olar. Lakin M.F.Axundovu ədəbiyyat tariximizin özünəqədərki nümayəndələrindən fərqləndirən cəhətlərdən biri də budur ki, onun "çoxcəhətli yaradıcılığında tənqidçilik xüsusi yer tutur(K.Talıbzadə). Bu fikrin davamı olaraq professor M.Məmmədov tamamilə doğru qeyd edir ki, "yeni məzmunlu müasir elmi ədəbi tənqidin əsası məhz M.F.Axundov tərəfindən qoyulmuşdur" (Göstərilən əsəri, s. 20). "Fəhristi- kitab", "Nəzm və nəsr haqqında", "Mollayi- Ruminin və onun tənsifinin babında", "Kritika. Yüksək İranın "Millət" qəzeti munşisinə", "Mirzə Ağanın pyeslərı haqqında kritika", "Tənqid risaləsi", "Türkcə "Təmsilat"ı tərcümə edən Tehran sakini Mirzə Məhəmməd Cəfərə" adlı məqalələri onun ədəbi tənqid sahəsindəki fəaliyyətinin nəticəsi olaraq yaranmışdır.

M.F.Axundovun ədəbi tənqid sahəsinə göstərdiyi marağın səbəblərini necə izah etmək olar? M.F.Axundov tənqidi, ilk növbədə, ədəbi-estetik təsvir və təsir üsulu kimi almış, insan psixologiyasında tənqidə xüsusi marağın olduğunu başa düşmüş, onun idraki və tərbiyəvi gücünə də inanmışdır. O, "Kəmaləddövlə məktubları"na ictimai həyat hadisələrinə, sosial və mənəvi-əxlaqi sferadakı eybəcərliklərə kəskin tənqidi münasibətinə görə yüksək dəyər vermiş və müasirlərini də əsəri bu istiqamətdə gərləndirməyə çağırmışdır. "Türkcə "Təmsilat"ı tərcümə edən Tehran sakini Mirzə Məhəmməd Cəfərə" bədxahlıqla tənqidin tamam fərqli anlayışlar olduğunu başa salmaq istyən tənqidçi yazırdı: "Burada bədxahlıq yoxdur. Ancaq irad tutmaq və tənqid vardır... İrad tutulmadan istehzasız, məzəmmətsiz və məsərəsiz tənqidi əsər yazıla bilməz. "Kəmaləddövlə məktubları" moizə, nəsihət deyil, tənqiddir. İnsanlar pis əməllərə adət etdiyi bir halda, tənqid vasitəsilə olmayıb, moizə, nəsihət və ata məhəbbəti tərzində yazılan bir əsərin başər təbiətinə heç bir təsiri olmayacaqdır".

Aydındır ki, Axundov "indi görün nəsihətlə tənqid və nəsihətçi ilə tənqidçi arasında nə qədər böyük fərq vardır" - deyəndə bədii yaradıcılıqda didaktizmlə satiranı qarşılaşdırır, estetik təsir vasitəsi kimi üstünlüyü birmənalı olaraq ikinciyə verirdi.: "Bu üstünlüyün səbəbi odur ki, tənqidi əsər istehza, gülgü və məsxərə yolu ilə yazılır". Bu mülahizələr M.F.Axundovun bədii yaradıcılığında tənqidi gülüşə böyük əhəmiyyət verməsinin, komediya janrına keçidin səbəblərini də aydınlaşdırır. Həmçinin, ədəbiyyatın tərbiyəvi, idraki əhəmiyyəti ilə bağlı mülahizələrin Axundovun estetik konsepsiyasındakı yeri müəyyənləşir. Yeri gəlmişkən onu da qeyd edək ki, Axundov ədəbiyyatın və ümumiyyətlə, sənətin insan idrakına, onun əxlaqına təsirini müəyyən mənada mütləqləşdirir. "Əgər inşallah, Kəmaləddövlənin məktubları nəşr ediləsə, məmin xalqım da tərbiyə və mərifət meydanına qədəm qoyar" mülahizəsində bu "mütləqləşdirmə"nin, ədəbiyyatın istiməi şüura təsir təsir gücünün şişirdilməsi tendensiyası aşkar görünür.

Fikrimizcə, Axundovun ədəbi tənqid sahəsinə böyük əhəmiyyət verməsinin psixoloji əsasında insan təbiətində tənqidə marağın güclü olması qənaətinə gəlməsinin də əhəmiyyəti olmuşdur.

İkinci halda ədəbi tənqid böyük mütəfəkkiri Avropa xalqlarının "ədəbi-mədəni həyatına çoxdan daxil olmuş fəaliyyət sahəsi" kimi maraqlandırmışdır. Bu məqamda o, ədəbi tənqidin ədəbiyyatın inkişafına təkan verə bilmək imkanlarını yüksək qiymətləndirmişdir.

Axundovun məqalələrində ədəbi tənqidin funksiyaları öz aydın izahını tapır. 1859-cu ildə komediyalarından və "Aldanmış kəvakib"dən ibarət kitabına yazdığı "Fəhristi- kitab" və Vaqiflə Zakirin əsərlərindən ibarət topluya yazdığı "Nəzm və nəsr haqqında" adlı müqəddimələrdə Axundov əməli olaraq tənqidçilik fəaliyyətinə başlasa da, tənqidin məna və mahiyyəti, bədii ədəbiyyatın inkişafında onun rolu haqqında ilk mülahizələrinə "Mollayi- Ruminin və onun tənsifinin babında" adlı məqaləsinda (1876) rast gəlirik. Bu məqalədə ə hələ nə "tənqid", nə də onun sonrakı yazılarında özünə yer alan "kritika" anlayışını işlətməmişdir. Axundov bu məqalədə fransız qələm sahiblərinin təcrübəsinə istinadən "...Mollayi- Ruminin və onun tənsifinin babında öz əqidəmi bəyana getirirəm"- deyir. Axundov bədii əsərə fransızsayağı münasibətin mahiyyətini aşağıdakı kimi izah edir: "Bu növ bəyan, miləli-islam arasında rəsm deyil və lakin Avropada heç bir təsnif çıxmaz ki, onun və müsənnifinin xüsusunda lazımeyi-bəyan və mədh, ya zəmm və ya hər ikisi məxlutən əmələ gəlməsin". Görkəmli mütəfəkkir "bu növ bəyan" ifadəsi altında Avropa mühitində ədəbi tənqidin geniş yayılmasından və onun üzərinə düşən vəzifələrdən söz açır. Axundov bu mülahizələrində ədəbi tənqidin bədii əsərə həm tənqid, həm də təqdir nöqteyi- nəzərindən yanaşmasını, başqa sözlə, bədii əsəri analitik təhlil süzgəcindən keçirmək kimi indi də öz müasirliyini saxlayan funksiyasını şərh edir.

Həmin məqalədə Axundov ədəbi tənqidi sənətkarla oxucu arasında bir körpü hesab edərək, məhz bu "şivə" vasitəsilə oxucunun əsər və onun müəllifi haqqında lazımi səviyyədə bilik ala biləcəyini əsaslandırır: "Əlhəq, bu günə diqqət bir yaxşı şivədir ki, xanəndə üçün zühura gələn təsnifin və onun müsənnifinin haqqında bəsirətə-kamilə hasil olacaqdır".

Axundov ədəbi tənqidin "miləli-islam" arasında yayılmadığını, lakin bədii ədəbiyyatın inkişafında oynaya biləcəyi müstəsna rol baxımından onu ədəbi fəaliyyət sahəsi kimi yaymağın vacibliyindən söz açır və buna görə də ədəbi-tənqidi məqalələrinin, məktublarının əvvəlində dostlarına, müasirlərinə müraciətlə bə- rədə dönə-dönə danışır. Axundov "ədəbi tənqid" anlayışına bərabər məzmunda "kritika" sözünü ilk dəfə İranın "Millət" qəzeti münşisinə göndərdiyi məktub-məqalənin sərlövhəsinə çıxarsa da, onun məzmununu daha geniş şəkildə "Tənqid risaləsi"ndə açır. "Mollayi- Ruminin və onun tənsifinin babında", "Kritika. Yüksək İranın "Millət" qəzeti münşisinə", "Mirzə Ağanın pyeslərı haqqında kritika", "Tənqid risaləsi" məqalələrinin məzmunundan aydın görünür ki, o, "kritika"nı ədəbi tənqidi daha çox bədii əsərdəki və yaxud sənətkarın yaradıcılığındakı qüsurlu cəhətləri aşkarlamaq, eyni zamanda bu qüsurları aradan qaldırmaq üçün sənətkara doğru yol göstərmək kimi başa düşür. Başqa sözlə, Axundovun estetik qənaətinə görə, tənqid sənətkarı həqiqi yaradıcılıq yoluna çıkməyin vasitəsidir. Axundov ədəbi tənqiddə prinsipiallıq, obyektivlik və elmilik tərəfdarıdır: "Bu mühavirələri (Rzaquluxan Hidayətin "Rövzətüs- səfayi-Nasiriyyə" əsəri haqqında tənqidi mülahizələri nəzərdə tutulur- T.S.) Tehran qəzeti idarəsinə göndərib, məlum edirəm ki, bu qaydaya Avropada əməl olunur və onun böyük faydaları vardır; məsələn: bir şəxs bir kitab yazdığı zaman başqa bir şəxs onun əsərinin mətləbləri xüsusunda kritika yazır, bu şərtlə ki, onun yazısında müəllif haqqında ədəbsiz və kənülə dəyən bir söz belə olmasın. Hər nə deyilsə, incəliklə deyilsin".

Yuxarıda adlarını çəkdiyimiz məqalələrdə onun ədəbi tənqid konsepsiyası özünün gerçək ifadəsini tapır. Axundov bədii əsərə və onun müəllifinə böyük qayğı ilə yanaşır, onun hərdə və nə üçün səhv etdiyini elmi dəlillərlə əsaslandırır, nəzəri biliyi və məntiqinin gücü ilə müəllifi inandırmağa çalışır; müəllifi əsərdə buraxılan səhvləri təshih etməyə istiqamətləndirir. Əgər əsər həqiqi yaradıcılıq məhsulu deyilsə, ciddi bir məna, ideya ifadə etmirsə, oxucuya estetik zövq vermək, onun idrakına və əxlaqına təsir imkanı yoxdursa, onda Axundov əsl tənqidçi prinsipiallığı göstərir və "söz"ünü çəkinmədən deyir. "Tənqid risaləsi"ndə Rzaqulu xanın əsərinə, "Mirzə Ağanın pyeslərı haqqında kritika" da müəllifin "Şahqulu Mirzənin Kirmanda sərgüzəşti" pyesinə münasibəti tənqiddə obyektivliyin, tənqidçi prinsipiallığının ən yaxşı nümunəsidir.

Ədəbi tənqid anlayışına geniş mənada yanaşan Axundov bədii əsərin müsbət cəhətlərini də görüb- göstərməyi və qiymətləndirməyi tənqidin əsas vəzifələrindən biri hesab edir. Tənqidçiyə görə, bədii əsər ideya-bədii mükəmməlliyin sintezində meydana çıxmışdırsa, onda "kritika əvəzinə hər tərəfdən onun haqqında tərifnamələr göndərəcəklər".

Axundov müasirlərinin yaradıcılığına ədəbi tarixi proses kontekstində yanaşmağa çalışır, buna görə də təhlillərində teztez milli və şərq, eləcə də dünya ədəbiyyatının tarixi inkişaf yolundan, böyük sənətkarların yaradıcılığından nümunələr gətirməklə fikirlərini əsaslandırırdı. "Nəzm və nəsr haqqında", "Kritika. Yüksək İranın "Millət" qəzeti munşisina", "Tənqid risaləsi" məqalələrində dövrün ədəbi prosesində poeziyanın yerini və xarakterini onun keçdiyi tarixi inkişaf yolunə elmi analiz verərək müəyyənləşdirirdi.

Bu məqalələrdə, ilk növbədə, tənqidçinin şər haqqında nəzəri mülahizələri diqqəti cəlb edir. Bütün bədii yaradıcılığı növlərində olduğu kimi, Axundov şeirdə də məzmunla formanın vəhdətini, bir-birini tamamlamasını əsas götürür, eyni zamanda məzmunun birinciliyini ön çəkirdi. "İki şey şeirin əsas şərtlərindəndir: məzmun gözəlliyi və ifadə gözəlliyi" deyən tənqidçi, "məzmun gözəlliyinə malik olub ifadə gözəlliyinə malik olmayan" şeiri "məqbul nəzm", "ifadə gözəlliyinə malik olub, məzmun gözəlliyindən məhrum olan" şeiri isə "kəsalət artırıcı nəzm" hesab edirdi.

Axundov şeirlə nəzm arasında sərhəd qoyur, onların tamam fərqli anlayışlar olması fikrinda israr edirdi. Tənqidçi əsl şeiri həqiqi zövq və təsir vasitəsi kimi alır, onun "laməhal ziyadə ləzzətə və hüzndə və fərəhdə ziyadə təsirə bais olması"nı vacib şərt hesab edirdi. O, şeirdən məzmunun yüksək sənət dili ilə obrazlı və təsirli ifadəsini tələb edir və belə düşünürdü ki, bu cür şeirin yaranması üçün şairdə gərək Allah vergisi olsun. Belə şairləri "maddə sahibləri" hesab edən Axundov yazırdı: "Şeir əlahiddə bir bəxşi-ilahidir ki və maddeyi- qabiliyyoti- şair xudadadədir və təhsil və tərbiyət o maddənin ancaq inbisatına və əşarın artıq zinətinə bais olar". Axundova görə, müasir terminologiya ilə desək, sənətkarın öz üzərində işləməsi, nəzəri savada, dünyagörüşünə malik olması ancaq bu "bəxşi-ilahi" ilə birlikdə böyük sənətə yol aça bilər.



Tənqidçi öz estetik konsepsiyasına uyğun olaraq şeirdəki ləzzət və təsiri, ilk növbədə, onun həyati məzmununda, real həyatla bağlılığında axtarır.

(Davamı var)

Təyyar SALAMOĞLU (Cavadov), filologiya elmləri doktoru